# Şəhidin xatirəsinə həsr olunan sənədli filmin təqdimatı oldu







**"Nakam ömrün akkordları" adlı sənədli film Vətən müharibəsi şəhidi Tural Hümmətova həsr edilib. Bu günlərdə Qəni Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzində filmin təqdimatı keçirilib. Şəhidin doğmaları və yaxınları, döyüş yoldaşları, qazilər və şəhid ailələrinin, rayon rəsmilərinin, mədəniyyət, media, ictimaiyyət nümayəndələrin qatıldığı tədbirdə əvvəlcə Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov qəhrəman Vətən sevdalısı Tural Hümmətovun həyatı, keçdiyi döyüş yolu haqqında məlumat verib, sonra sənədli film nümayiş etdirilib.**

Filmin sennaristi və rejissoru, Q.Vəliyev adına Mədəniyyət Mərkəzinin direktoru Anar Kəkəyev isə film barədə öz təəssüratlarını bölüşüb.

Məlumat üçün bildirək ki, Tural Hümmətov 20 may 1998-ci ildə Lənkəran rayonunun Tatoba kəndində dünyaya göz açıb. O, Q.Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzində dərnək rəhbəri kimi əmək fəaliyyətinə başlayıb. 2020-ci il sentyabrın 27-də başlanan, 44 gün çəkən haqq savaşımızda Hadrut qəsəbəsinin, Füzulinin və Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə yağıya qarşı vuruşub. Qəhrəman Vətən sevdalısı noyabrın 7-də Şuşanın azad edilməsi zamanı müqəddəs şəhidlik zirvəsinə ucalıb və Lənkəran rayonunda canından artıq sevdiyi torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları əsasında Tural Hümmətov ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**